Əvəz Süleyman

# DÜNYADA QALSIN

Bakı - Yazıçı - 2011

Az2
2011
S 63
BBKC 63

**“Dünyada qalsın”. Əvəz Süleyman,**
Bakı, “Yazıçı” nəşriyyatı - 2011, 192 səh.

Nəşriyyatın direktoru
**Şəmsi VƏFADAR**
Redaktor
**Əli Rza Xələfi**
*şair-publisist, Beynəlxalq Rəsul Rza mükafatı laureatı*

| | |
|---|---|
| İcraçı direktor | Gülnarə MƏMMƏDOVA |
| Kompyuter dizaynı | Ələsgər HÜSEYNOĞLU |
| Korrektor | Fatimə HƏMİDOVA |
| Operatorlar | Leyla ƏLİZADƏ<br>Günel MƏMMƏDZADƏ<br>Zərifə BAĞIROVA |

**S 5204000123 - (654) / M - 656 - 2011 qrifli nəşr**

**ⓒYAZIÇI**



Əvəz SÜLEYMAN

**(Süleymanov Əvəz Sirac oğlu)**

*1942-ci il aprelin 10-da Ağsu rayonunun Qırlar kəndində anadan olub. Orta təhsilini Ağsu rayonunun Sanqalan kənd 8 illik məktəbində və Ağsu qəsəbə orta məktəbində alıb (1961). Ağsu Pedaqoji Məktəbini (1963), Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (1969) bitirib. Kürdəmir rayonunun Pirli kənd 8 illik məktəbində (1963-1967), Ağsu*

*rayonunun Sanqalan kənd 8 illik məktəbində (1967-1973), Şamaxı rayonunun Çıraqlı kəndində (1973-1991) məktəb direktoru işləyib.*

*Hazırda Şamaxı şəhər 5 saylı orta məktəbində çalışır (1991-ci ildən).*

*"Tək qardaş ömrü", "Əzab", "Əfsanəyə çevrilən ömür", "Pələng balaları haqqında şəkilli kitab", "Köhnə dərd" və "Döy məni, ana, döy", "Dərd yazanın dərdi" adlı kitabların müəllifidir.*

*Yazıçı-publisist Əvəz Süleyman 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm" və 2010-cu ildə "Sərhəd qoşunlarının müsabiqəsi" mükafatı laureatıdır.*

# *ÖN SÖZ ƏVƏZİ*

## DÜNYADA QALAN...

"Yaxşılıq yaşamaq deməkdir" məramı qələm dostumuz, səmimi yazıçı Əvəz Süleymanın irili-xırdalı bütün yazılarının ruhundan keçir, pak, hər an ehtiyac duyulan dua kimi oxunur. Onun yazıları bir daha isbatlayır ki, "yaxşılığın əvəzini gözləyəndə o, qar kimi əriyir" və təbii olaraq ağ üzü qara edir.

"Dünyada qalsın..." kitabının məziyyətləri haqqında geniş danışmaq istəməsək də bir həqiqəti deməyi özümüzə borc bilirik. Müəllifin poetik ruhla qələmə aldığı deyimlərdə dərin həyat müşahidələri ümumiləşdirilib. Hər bir cümlənin arxasında həyatın acılıqlarını, şirinliklərini öz ömründə duymuş, yaşamış insanın müşahidələri var. Sanki Hər bir cümlə bir həyat hadisəsinin məntiqi yekunudur. Müəllif bəlkə də bir hadisəni hekayə kimi də işləyər, sonunda deyim şəklində təqdim elədiyi fikrin məntiqi

yekununa gələrdi. Amma Hadisəni ixtisar edir, əhvalatı danışmır, təkcə yekunu təqdim edir. Bununla da oxucuya düşünmək imkanı verir. Əslində, hər bir müəllif hadisənin bütün ağırlığını təxəyyülündə bişirərkən özündə keçirir. Dəqiq fikir, düşüncə məhsulu kimi təqdim olunan deyimlər həmin ağırlığın yükünü oxucuya ötürür. Bununla da sanki qandəyişmə prosesi gedir.

Müəllif-oxucu arasındakı bu münasibət donor missiyası daşıyır. Oxucu müəllifin ruhu üstə köklənmiş olur. Və demək, dəqiq fikir ifadə edən deyimin tələbləri oxucunun mənəvi aləmində öz təsdiqini tapır.

Əvəz Süleyman ağ üzün, munis qəlbin yazarıdı, "kişini ev-eşik tutmaz" düşüncəsi bütün reallığı ilə onun gündəlik fəaliyyətindən keçir..

Əvəz müəllim "Sirrini anana de, anan olmasa bacına de, bacın olmasa, divara söylə" dünyagörmüşlüyünə varana qədər çox ötəri həvəslərin viranəliyinə qəlbən yas tutub, "Yayda yorul, qışda yat" ahıllığı çəkib.

Dünyanın gedişatını təkcə özün üçün yır-yığış etmək ədəbdən deyil. Gərək sənə verilənləri abidəyə çevirə biləsən - tamaşasına el dura.

Yetər ki, Əvəz Süleymanın yazdıqlarını bəsirət gözüylə oxuya biləsən. Fəhm edəsən ki, müəyyən kəm-kəsirinə, çatışmazlığına baxmayaraq, bu yazılarda saf, Allaha sayqılı, insana yanımlı bir ruh dipdiridi, burada əxlaqi bir rahatlıq var.

***Əli Rza XƏLƏFLİ,***
***Sərvaz HÜSEYNOĞLU***

*Müəllifdən:*
# BİR MÜCRÜ AÇIRAM

Yaradan bəzən insan ömrünə xoş anlar göndərir. O zaman bunları hiss etmirsən. Lap uşaqların doğulduğu kimi. Ancaq səninlə uzun müddət o Allah göndərənlər yaşayır. Sanki ana bətnində yetişir. Hasil olanda da doğulur. Doğulanlar bir müddət səninlə danışmır. Körpələr kimi o da yetişir. Demək olar ki, bu doğulanları hər gün oxuyursan. Nəsə bir şey əlavə edirsən, ya da...

Hər yazıdan sonra rahatlanırsan. Sakitcə ya işə gedirsən, ya da çay süfrəsinə əyləşirsən. Hiss edirsən ki, çox rahatsan. Sənə verilən bütün suallara cavab tapırsan. Ancaq o yazdıqların sənin gözündə kiçikdi, körpədi. Gözləyirsən onun böyüməyini. Vərəqlər arasında yetişən fikirlər səni özünə bələyir. Artıq dərk edirsən və bəzənirsən.

Mənim bu yazım da beləcə dünyaya gəldi və bax, bu anların hamısını yaşadı. Özü də

burada toplanmış hər ifadə tərzi ardıcıl yazılan yazı deyil, illərin, ayların məhsuludur. Bütün yaş dövrlərində yığdıqlarım bu deyimlərdə mücrüyə yığılan kimi yığılıb saxlanılmışdır. Ona görə də mən bu yazımı söz mücrüsü adlandırıram. Əminəm ki, bu mücrüdə hamının payı var.

Əziz oxucu, mücrünü ehtiyatla aç, özünə aid olanı götür. Yadından çıxmasın, elə bağla ki, qoy səndən sonra gələn də o mücrünü açanda öz sözünü tapa bilsin.



# DÜNYADA QALSIN...

* * *

Yaxşılıq yaşamaq deməkdir.

Yaxşılıq etdiyin gün sənin yaşadığın gündür. Bəli, sən olmayanda yaxşılıq təkrarlanacaq, sən o günü yenidən yaşa-yacaqsan.

* * *

* * *

Təbəssümü sən axtarma, qoy o özü səni tapsın. O səni tapanda o günün xoş keçər.

* * *

* * *

İnsanlar bir-birinin dərdini yeyir. Dərd və çətinliklər səni bürüyəndə insanlar arasında ol. İnsanlarla ünsiyyət saxlayanda dərd və çətinliklər çoxluqdan qorxub gizlənir. Sən rahatlıq tapırsan.

* * *

* * *

Əzizinəm dərdinə
Dərdin alım dərdinən.
Mənə dərman göndərmə
Dərdli göndər dərdnən.

* * *

* * *

Yaşadığın gün yaddaqalan deyilsə, deməli onu yaşamamısan. Yağıb əriyən qara bənzəyir. Çalış yadda qalmayan günlərin az olsun.

* * *

* * *

İnsan həmişə səyyahdır. Düşüncələri də onun yol xəritəsidir. Düşüncələr işə çevriləndə kəşflərə bərabər olur.

* * *

* * *

Düzlük sərvətdir. Onu itirmə, itirsən həyatda azacaqsan. Kompassız səyyahın azdığı kimi.

* * *

* * *

Düzlərin düşməni çoxdur. Lakin düzü, qılınc kəsmir, güllə ona batmır. Öləndə də düzün yerinə göyərən çox olur.

* * *

* * *

İnsan daşı yonub ondan cansız insan düzəldə bilir. Lakin öz canına qulluq edib daş ömrü qazana bilmir.

* * *

* * *

“Ey həyat, sən qəribəsən” deyimini qəbul etmirəm. “Ey insan, sən nə qəribəsən” demək daha düzdür. Çünki həyat insanın əlindən tökülən qum dənələrindən və tər damcılarından tikilmiş çox nəhəng binadır.

* * *

* * *

Olumla ölümü barışdırmaq mümkün olsaydı, hər kəs dünya mülkünün sahibi olmaq istəyərdi.

* * *

* * *

Yaxşılığın əvəzini gözləyəndə o, qar kimi əriyir.

* * *

* * *

Əzab qorxusu olmasa, insanlar Allah olmaq iddiasından əl çəkməz.

* * *

* * *

Sirrini anana de. Anan olmasa, bacına de. Onlar olmasa, divara de.

* * *

* * *

Kişi fildir. Onu ev-eşik tutmaz. O, çöl-bayır üçün doğulmuşdur. Əks halda kişi yazıqlaşır. Ölümə tabe olur.

* * *

* * *

Dost sözü çox qalın kürk geyinəndi. Dost sözünü mən dirəyin altına vurulmuş sütuna bənzədirəm. Sütun dirəyi çökməyə qoymadığı kimi, yaxşı dostlardan da heç biri heç vaxt çökməz.

* * *

* * *

Hər bir ailə başçısının görünən ekranı onun ailədəki təlim-tərbiyəsidir. El ailə başçısının hər zəhmətini o ekranda çox aydın görür. Ailədəki dinclik elin xoşuna gələndə ailə xoşbəxt olur.

* * *

* * *

İşləmədiyin günü ömrə yazmaq olmaz. İş insanın mənəvi dayağı, xoş həyatın təməli, gələcəyin işığıdır.

* * *

* * *

Qadın dünyası elə labirintdi ki, onun bütün yollarını asanlıqla keçən kişi olmayıb. Bütün kişilər o labirintdə azırlar.

* * *

* * *

Söz hökmdarı dövlət hökmdarından güclüdür. Söz hökmdarını dövlət hökmdarı yıxa bilməz, dövlət hökmdarın söz hökmdarı yıxa bilər. Çünki söz hökmdarının döyüşçüləri ölmür.

* * *

* * *

İnsan qocalanda arxaya baxır. Ömür sakit-sakit süzülür. Elədiyi yaxşılıqlara gün düşür. Pisliklər gizlənir. Əgər etdiyi pisliklər görünsə, insan nalə çəkib ağla-yar.

* * *

* * *

Əsilsiz adamın çörəyini yeyən,
Dahi olarsa da, zülm gözləyir.

* * *

* * *

Torpaq qədər varlı olsan da, insanlarla mehriban ol, onları sev. Onlara pislik edəndə o sevgi səni qorusun. Necə ki, torpaq insanı yetişdirib yeyəndə də insan ondan incimir. Torpaq deyir:

Həyat deyib yaşamışıq,
Qərinədən-qərinəyə.
Dost deyibən, düşmən kimi,
Bir-birimizi yeyə-yeyə.

* * *

* * *

Pul gözünü örtsə, keçmişi unutsan nə itirəcəksən? - Yaşadıqlarını, bir də gələcəyini.

* * *

* * *

Söz dünyanın ən ağır dərdlərini əridən sobadır.

* * *

* * *

Tülkülər başını darayan kəsdən,
Peyğəmbər olsa da, əməl düz olmaz.

* * *

* * *

Söz yaxşılıq bağçasında ən yaxşı meyvə verən ağacdır.

* * *

* * *

Eşitmişəm.
Qoyunluğu seçmisənsə, qurdluğu qəbul edəndən incimə.
Eşitmişəm.
Uşaqları quzu kimi bəsləməyin,
Çünki böyüyəndə qoyun kimi dalınca düşmək lazım gələr.

* * *

* * *

Qorxu pis məsləhətçidir.

* * *

* * *

Eşitmişəm.

Kiçik balıqlar böyük balıqların qarnında bir-birini didir. Vay o günə.

* * *

* * *

Yaxşı düşünə bilməyəndə yaxşı yeyib-içmək həvəsinə düşmə, sakit guşədə dincəlməyi arzula.

* * *

* * *

Torpaq olmağa inanırsansa, diri ikən də torpaq kimi təvazökar ol.

***Məhsəti Gəncəvidən.***

Ey qoca, yaşlısan deyilsən naşı,
Torpaq ələyənin cavandır yaşı
De yaş ələsin, çünki bu torpaq.
Keyqubaq bədəni, Firudin bası.

* * *

* * *

Gizli düşmənçilik, namərd dostluğa bənzəyir.

* * *

* * *

Uşaq doğulanda dünyanın olur. Çünki dünya onun Bethoven, Ərəstun olmasını gözləyir.

* * *

* * *

İnsan bütün alıb-satdıqlarını ölçüb çəkir. Bəs yaşadıqlarını necə?

Əlbəttə, yox.

Yaşadıqlarını ölçüb-çəksəydi, onda dahilərin sayı çox olardı.

* * *

* * *

Dünya xəlq olunub yaradılandan sonra ona bir şeyin əlavə edildiyini görən yoxdur. İnsan da elədir. Həyatda insana da bir şey əlavə olunmur. Təhsil və nəsihət az şeyi dəyişdirir.

Ona görə də hər bir insanı nəsildən gələn kimi qəbul etmək daha doğru olar.

* * *

* * *

Daxili aləmini gizlətməyi bacaran hər bir şəxs hörmət sahibi ola bilər. Lakin bütün gizlətdikləri üzə çıxanda qazandıqlarını itirir. Elin gözündə birdəfəlik ölür.

* * *

* * *

Pislik insan həyatının buludlu havasıdır.

* * *

* * *

Dərd qudurub şahlıq edir,
Aman nəzərdi dünyamız.

* * *

* * *

Yalan mənəvi xərçəngdir,

Xənçəng xəstəliyinə tutulanlar ölür. Sonra el gözündə yaşayırlar.

Lakin yalan xərçənginə tutulanlar el gözündə ölü yaşayır. Öləndə onun ölüsü gözə görünmür.

* * *

* * *

Niyə çiçək ömrü azdır. Düşündüm ki, Yaradan çiçəyi bir ömürdə tanıyıb. Onun faydasını görüb sevinib. Ona görə də hər il çiçəyi dirildib yeni ömür verir ki, onu arzulayanlar sevinsin.

Bəs insanı? İnsana uzun ömür verir. Bu ömürdə insanın əməllərinin hamısını bəyənmir. İnsan öləndən sonra ona çiçək ömrü vermək üçün üç, yeddi, qırx gün fikirləşir. Lakin...

* * *

* * *

Niyə?

Ağaclar bir-birinə kölgə salır, gül-çiçəklər bir-birinə gözəllik və qoxu verir, kollar bir-birini qoruyur, sular bir-birinin üstünə tökülüb çay, göl, dəniz, okean yaradır. Heyvanlar yeyib doyur, artığını başqaları üçün qoyub gedir.

Bəs insanlar?

Bir-birini parçalayır, öldürür, məhv edir. Müharibələr, qırğınlar törədir.

Səncə, dünya kimə qalsa yaxşıdır?

* * *

* * *

Xatirələr ömürdəki bəzi dəqiqələri dondurub saxlamaq üçündür.

* * *

* * *

Hər kəsdə olarsa səxavət daşı,
Ağrımaz heç zaman o kəsin başı.

* * *

* * *

Ata-ananın övladlarına olan məhəbbəti dövlətin himni, bayrağını və gerbini əvəz edir.

Dövlətin dövlətçiliyi himn, bayraq və gerbi ilə təsdiqlənirsə, ailənin də möhkəmliyi ailə üzvlərinin bir-birinə olan məhəbbəti ilə təsdiqlənir. Ailədəki məhəbbət nəsildən gələn olarsa, o, əsrlərə yoldaşlıq edər.

* * *

* * *

Günəş dünyanı gülməklə sevindirirsə, insan da şirin dili ilə. Dilin şirinliyi səmimiyyətin, mədəniyyətin, əxlaqın saflığıdır.

* * *

* * *

Bütün kəsici alətlər daşla itilənir, insansa nəfs və tamahla.

* * *

* * *

İnsanlara hədiyyə qiymətli əşyalar yox, səni və onu yaşadan sözlər, fikirlər ver.

Əşyalar itər-batar, sözlər, fikirlər yaşadıqca qiymət tapar.

* * *

* * *

Asılı yaşamaq ən böyük fəlakətdir.

* * *

* * *

"Yarpaq və insan" şeirindən
...Yarpaq qədər, ey insan!
Bir-birinə kölgə salsan,
Sənin də ölün üstə
Yatarmı əfi ilan.

* * *

* * *

Elm və ağıl zəhmətin balasıdır.

* * *

* * *

Dünya torpaq və insandan başqa bir şey deyildir. Birinin inciləri söz, o birininki isə metal və daş-qaşlardır.

* * *

* * *

Yayda yorul, qışda yat.

* * *

* * *

Yayda yorul ki, qışda yorğanın isti olsun.

* * *

* * *

Rahat həyat arzulama, işləməyi bacaran sağlam can arzula.

* * *

* * *

İnanmaq rahatlığın, sakitliyin həbidir.

* * *

* * *

Düşmənin varsa, çalış onu məhv et. Onun güclənməsinə yol vermə. Zəifkən öldür, öldür.

* * *

* * *

Sənə bir yumruq vurana çalış beşini vur.

* * *

* * *

Düşmənin yanında ağlama, onunla döyüş, öləndən sonra sənin üçün ağlayacaqlar.

* * *

* * *

Qəhər yaşlarından başqa, mən bütün göz yaşlarına nifrət edirəm.

* * *

* * *

Sirr hər insanın özü üçün doğulub. Onunla da haqq yerinə getməlidir. Ey Oğuz türkü, baban da belə olub.

* * *

* * *

Sirr saxlamağı bacaran insan əsl polad-dır.

* * *

* * *

Qəribin ağlı ona arxadır.

* * *

* * *

Ailənin ağsaqqalı eşitməsi mənəvi güc, qurtarmayan çörək, tükənməyən pul, ləyaqət və mədəniyyətdir.

* * *

* * *

Bütün çətinliklərin açarı ağsaqqaldadır.

* * *

* * *

Ata sözünə baxmayan övlad, naxırda tək gəzən danaya bənzəyir.

* * *

* * *

Yaradan naləni Şamaxıda tez eşidir.

* * *

* * *

Mənəvi qidası zəif olan insanlar həmişə xəstə olurlar. Bəzən də ölü yaşayırlar.

* * *

* * *

İnanmadan yaşamaq çox çətin həyat tərzidir. Bu hər vaxt oyaq olmaq deməkdir.

* * *

* * *

Yaxşı ki, günəşli günlərin sayı tutqun günlərin sayından çoxdur. Elə insan həyatı kimi. Yoxsa günəşlə insanların oxşarlığı az seçilərdi.

* * *

* * *

Yazıçı həyatı.

Mən hər zaman uzaqda görünən işığa doğru sürünmüşəm... Lakin o işığı yandırmağın həvəsində çox yaşlı vaxtımda olmuşam. Bu, ömrümü bir qədər ağladıb. Bilmirəm bu göz yaşları gələcəyə qalacaqmı?

Qalarsa, qoy gələcəyin olsun.

* * *

* * *

Ziyalı nurunu, işığını dünya bölüşür.

* * *

* * *

Hər bir adamın yaşadıqları ilə düşündükləri arasında fərq tərs mütənasibdir.

* * *

* * *

Çalış çayı bal ilə iç. Bəlkə də bal onun üçün yaranıb.

Yox bal şirinliyi ilə bütün acıları yola verir.

Ey insan, nə durmusan sən də...

* * *

* * *

Var-dövlət sənə artıq ömür verə bilmirsə, onu yığıb, sonra da qorumağın faydası varmı?

* * *

* * *

Söz ən iti qılınc, ölümcül yaralayan güllədir.

* * *

* * *

Nəfsin əlindən hansı gün rahat yaşamısansa, deməli o günün ən xoşbəxt gündür.

* * *

* * *

Xoşbəxtlik satılmır, alınmır, o, zəhmət-
lə qazanılır.

* * *

* * *

Ey insan! Dünyanın qızıldan tac qoyanları ölümün qabağında dilənçi kimi çökürsə, gücsüzə çubuq vurmaq nəyə lazımdır.

* * *

* * *

Həyatın qəbul etdiyi qanunlar daima yaşayır. Bu belədir. Həvəslə, maraqla yaşamaq, yaşamaqdan doymamaq, həyatdan ayrılmağa dözməyib ağlamaq. Bunları bilə-bilə yaşamağa doğru sürünmək.

* * *

* * *

İçərisi güclü olan insanların rəqibləri çox olur.

* * *

* * *

Məşhur insanlar qeyri-normal insanlardır. Onlar tərifi çox sevir.

* * *

* * *

Qərib insanlar az danışıb, çox düşünməlidir.

* * *

* * *

Ətrafındakıları güldürməyə çalışma. Ondan sənə az şey qalar. Filosoflara oxşa, düşündürməyə çalış. O zaman həm özün yaşamağın dəyərini bilərsən, həm də ətrafdakılar.

* * *

* * *

Göz yaşına rəhm edənə güllə tuş gəlməz.

* * *

* * *

Günəş dünyanı sevindirməyə çalışırsa, ey insan, sən niyə hər gün bir füqəranı sevindirib güldürməyəsən.

* * *

* * *

Düşməni aldatmaq ona qalib gəlməyə bərabərdir.

* * *

* * *

Məsləhət üstəgəl əlverişli zaman bərabərdir uğurlu nəticə.

* * *

* * *

Sən kasıblaşdıqca, gördüyün işləri də xırdala.

* * *

* * *

Uğur qazananda öyünmə, sən öyünəndə düşmənin sevinir ki, səndə zəif cəhətlər başlayır. O, xırda işlər görüb, səni aldadır. Arxada böyük planlar qurur və tora salır.

* * *

* * *

Ədalətli ol, ancaq ədalətsizlə mübarizə aparma. Çünki ədalətsiz insanın yalanları güclü olur. O, səni el arasında hörmətdən sala bilər.
Sən ədalətli ol, qoy el özü müzakirə etsin.

* * *

* * *

Nəzarətdə saxlaya bilmədiyin əşyanı, işi əmanətə qoyma.

* * *

* * *

Bütün ümidlərini asılı olduğun adamın ixtiyarına vermə və ondan umma. Gördüyün işin haqqını al, salamı birinci ver, ona arxalanma, evdə onun haqqında danışma.

* * *

* * *

Qardaşını sev, özün ona ümid yeri ol, çalış o sənə arxalansın. Onunla hər gün görüşməyə çalış.

* * *

* * *

Xoş günün açarı insanın özüdür.

* * *

* * *

Dünyada olsaydı yaxşılar günü,
O günü əkərdim yaxşılar gülü.

* * *

* * *

Uçotsuz ticarət tez çürüyən meyvə alverinə bənzəyir. Hər ikisindən fayda götürmək haqqında yalnız əqli zəiflər fikirləşə bilər.

* * *

* * *

Başqasını dinlə, məsləhət al, lakin ürəyin deyəni et.

* * *

* * *

İnsan öz həyatının sərkərdəsidir. Böyük işləri bitirəndə dincəlir. Elə bilir ki, ölümü qovub, ancaq yox, yaşadıqları ölümə yaxınlaşır. Lap getdiyi yol kimi.

* * *

* * *

Bütün səhvlərin arxası və müdafiəçisi yalandır.

* * *

* * *

Çox ölçüb-biçmək insanı qələbədən saxlayır, tənbəl edir.

* * *

* * *

Başqasının dalınca düşmək və onu dəstəkləmək ağılsız və ləyaqətsiz adamın işidir.

* * *

* * *

Hər gün günəşdən istilik gözləmə. O, verməyə də bilər. Özün günəş olmağa çalış.

* * *

* * *

Yuxulu yaşamaq ölümün bir növüdür. Ondan ehtiyatlı ol. Onu özünə tərəf buraxma.

* * *

* * *

Abır, həya və hörmətin paltarı puldur, çörəkdir. Pulun və çörəyin olmasa, duru axarlı mayelər kimi abır, həya və hörmət el gözündə dağılıb gedəcək, sənin olmayacaq.

* * *

* * *

Pul və çörək abır, həya və hörməti saxlayan qabdır.

* * *

* * *

Başqasına borca getmək əriyən buz layına bənzəyir.

* * *

* * *

Yeməklə öyünmə, saxladığın ehtiyatla öyün.

* * *

* * *

Nə yediyini görən olmur. Nə saxladı-ğını, bərk günün dayağını görən olur.

* * *

* * *

Göstəriş verməyə öyrənmə, o çox çətin müalicə olunan xəstəlikdir.

* * *

* * *

Sifət ikinci ürəkdir.

* * *

* * *

Yaxşı əhval-ruhiyyə sağlam düşüncənin qidasıdır.

* * *

* * *

Bilikdən bağlanan şələ yüngül, səni yormayan, hər gün artıb-azalan, səni çətinliklərdən qoruyan şələdir.

* * *

* * *

Xəstəlik yaradan bütün mikroblar balın şirinliyinə aldanıb balı yeyir və tez məhv olur.

* * *

* * *

Səni şirin dilə tutub aldatmaq istəyən bütün insanlardan uzaq ol.

* * *

* * *

Əl qazanıb ağız yesə, nə gözəl,
İnsan ona əməl etsə, nə gözəl.

* * *

* * *

Xain dostlarının sırasına yaddaşı da yaz.

* * *

* * *

Heç vaxt yaddaşa güvənmə qardaş, ondan sənə olmaz sadiq yoldaş.

* * *

* * *

Ölüm uzaqda görünən üfüqdür. Hamı istəmədiyi halda tədricən ona yaxınlaşır. Vaxt yetişəndə üfüq sürətlə gəlir və insanı bağrına sıxır.

* * *

* * *

Düyün salan olma, düyün açan ol, düyün açanlar daş üstə göyərir.

* * *

* * *

Xırda dərdləri körpə ikən boğ.

* * *

* * *

Mən bir dostluq tanıyıram, o da oğulla atanın dostluğudur.

* * *

* * *

Ata ilə oğlun dostluğundan başqa, bütün dostluqlar gecə görünən kölgədir.

* * *

* * *

Sibili zibillikdən atdılar,
Yeri zibillik qaldı,
Yer alışdı, yandı.

* * *

* * *

Ağıl və güc insan üçün dəmir geyimdirsə, etibar və sevgi dəmir geyimin çox nazik örtüyüdür.

* * *

* * *

Sevgi gözdə, şirinlik sözdədir. Sözün şirinliyi olmasa, göz bir şey edə bilmir, gözün sevgisi olmasa, söz bir şey edə bilmir. Bunların hər ikisi məhəbbətin nökərləridir.

* * *

* * *

Sənətdə tənqid və məsləhət yaradıcılığa işıq salır.

* * *

* * *

Məsləhət tənqidin həlim qardaşıdır.

* * *

* * *

Tənqidi dost hesab etməyən insan özü də bilmədən tədricən sərtləşir, kobudlaşır, qalınlaşır. Sonra onu heç bir cərrahi əməliyyat hamarlaya bilmir.

* * *

* * *

Bütün canlıların cəlladı qışı,
Geri çağırmağa gücümüz hanı?
Olsaydı insanın çox güclü daşı
Əzməzdimi qışın gül yeyən başın.

* * *

* * *

Ata-ana sənə cəsəd, Yaradan can bağışlayır. Ey insan, oraya işıq çəkib xəzinəyə çevirmək sənin öz işindir.

* * *

* * *

Başqasına yuva tikənin yuvasında gül bitər, başqasına quyu qazanın yuvasından su çıxar.

* * *

* * *

Aca tikə ver, toxa ədəb, mərifət.

* * *

* * *

Torpaq kimi yaxşılıq edəndən ol ki, sənin yolunda ölənlər çox olsun.

* * *

* * *

Xörəyi yeyəndə tamı, insanı danışdıranda ləyaqəti üzə çıxır.

* * *

* * *

Tənqid daşı cansız insana, tarixi, mədəniyyəti, keçmişi, gələcəyi yaşadana çevirir. Tənqiddən qaçanlar sükunətdə olan daşa çevrilir.

* * *

* * *

Tənqiddən qorxanlar buz kimi əriyir, gələcəyə qalmır.

* * *

* * *

Yaxşılıq elə, torpaq kimi tapdanmaqdan qorxma, əkdiklərin bar verəndə dağlar səni yanına çağıracaq.

* * *

* * *

Ən yaxşı valideyn, ən yaxşı tərbiyəçi cəmiyyətdir.

* * *

* * *

Həyatın öyrətdiklərini yalnız yaddaş yır-yığış edib öz xəzinəsində saxlayır. Sonra da ləl kimi sənə qaytarır.

* * *

* * *

Sevinc yaşları çox olanda insanın düşünmək qabiliyyəti azalır. Bədbəxtliyin onu yaxalamasından xəbəri olmur.

* * *

* * *

Dəmiri od əridirsə, insanı qəm, qüssə və kədər əridir.

* * *

* * *

Qocalar bütün dillərdə oxunan kitabdır.

* * *

* * *

Qocaya zülm edənin üzünə həyat gülməz, gözləri daima yaşlı olar. Yaradan onun övladlarının duasını eşitməz, ruzinizi axtarın, tapın deyər.

* * *

* * *

Bütün işlərin çətini tərbiyədir.Tərbiyə insan xasiyyətində heç nəyi dəyişdirə bilmir.

* * *

* * *

Yalan doğrunu əzişdirə bilər, ancaq onunla yanaşı yol gedə bilməz.

* * *

* * *

Atmaq istədiyin istək və arzunu əzişdirib atmaq səhvdir. Onu kötüyünə qədər yandırmaq, yox etmək lazımdır. Elə o anda da yeni istək və arzu göyərtmək vacibdir.

* * *

* * *

Bir imkanlı insan mənə:

- Müəllim, çətin, ağır işlərlə məşğuluq, hərdən bizim üçün dua elə.

Elə onun yanında:

- Yaradan sizi pulun fəlakətindən, məni isə ağlımın azalmasından qorusun.

* * *

* * *

Əzabın ləzzətini çəkən bilir.

* * *

* * *

Çörək qazanmağa həvəslə gedəndə ruzi gizlənib səni gözləyir.

* * *

* * *

Elmin varsa, səni və ailəni yoxuşsuz həyat gözləyir. Səxavətin varsa, Yaradanın yaddaşında qalacaqsan, Yaradan səni imtahan etməyəcək, səbrin varsa, dinc həyat özü səni tapacaq.

* * *

* * *

Ölümün dəhşətini yalnız ölənlər bilir.

* * *

* * *

Alimdə var-dövlət olmaz, varlıda elm.

* * *

* * *

Qardaşının qisasını alan ol, ancaq onu müdafiə edən şahid olma.

* * *

* * *

Düyünlər açılanda insan qəlbinə nur düşür, rahatlıq paylanır.

* * *

* * *

Bütün metallar yanar kürədə saflanır, insan isə elmin işığında.

* * *

* * *

Yerində deyilmiş söz göydən tutulmuş ulduza bənzəyir.

* * *

* * *

Yaxşılığın əvəzini yeyəndə qarın tez doyur.

* * *

* * *

Dünya malı üçün başqasına əyilməyi bacarmayan insanın ömrü həyatdır.

* * *

* * *

Arı kimi işləməyi, filosof kimi düşünməyi bacar.

* * *

* * *

Qocalıqda hiyləgər düşmən tanımıram.

* * *

* * *

Halala tikilən komadan gün doğar.

* * *

* * *

Haram yandıranı el söndürə bilməz.

* * *

* * *

Eşitmişəm. Çox dövlət haramsız, çox söhbət yalansız olmaz.

* * *

* * *

Eşqin yanacağı gözdür.

* * *

* * *

Səhvlərim olmasaydı göylərə qalxardım.

* * *

* * *

Eşqə düşüb yanan ocaq sonradan elədiklərini fikirləşəndə qaralıb kömür olur. Ocağın gününə düşməmək üçün eşqə düşəndə həddini aşma.

* * *

* * *

Fikirlərini yeyib dirildən insanları çox xoşbəxt sanıram. Çünki elələri sonradan əbədi həyat qazanırlar.

* * *

* * *

Yaradan güclüdən güclü yaradıb ki, gücsüzün naləsi yerdə qalmasın.

* * *

* * *

Ölmək üçün yaşamaq asandır. Öləndən sonra yaşamaq insanın Tanrıdan zəhmət və ləyaqətinə görə aldığı paydır.

* * *

* * *

Sığınmaq mərdlik nümunəsidir. Sonra qüvvə tapıb haqqısaya haqqısayla cavab verirsən.

* * *

* * *

Ey hökmdar! Diş ağrısına dözə bilməyib sevimli dişindən hamıya şikayət edirsən. Sonra çəkdirib zibil qutusuna atırsan.

Sənin məmurun da mənə sənin dişin kimi ağrı-acı verib sizin yanınıza şikayətə göndərib.

* * *

* * *

Qəssab kimi kötük üstə şəri doğraya bilməsən, səndən el üçün yararlı adam çıxa bilməz.

* * *

* * *

Dənizə baş vurub gedənlər kimi, məhəbbəti yaralayıb getmə.

* * *

* * *

Gənclik utancaq qonaqlar kimi bizi tez tərk edir ki, sonradan əbədi xatirələrdə yaşasın.

* * *

* * *

Öyüd verməyin ən yaxşı üsulu şəxsi nümunə göstərməkdir.

* * *

* * *

Canımla söhbət.

Canımdan yaman şikayətlənirdim. Nədir bu qocalığı qəbul elədin? İndi sərt düşmən kimi mənə zülm edir. Mən də tabe olub onun verdiyi bütün əzabı qəbul edirəm. Bir olan Allahı köməyə çağırıram. Mənim kimilər çox olduğundan Yaradan da qocalığa zəhmli baxmır, baxanda da artıq mən torpağın yemi oluram.

Canım bunu gözləyirmiş kimi, tamam ciddiləşdi. Qulaq as, indi yadına düşürəm. Sevmisən özgəsini, dost demisən özgəsinə, məhəbbət salmısan oğul-uşağına, bir də yaxınlarına. Məni bu dediklərim üçün gecə-gündüz qul kimi işlətmisən. Bir qarın yeməyi də vaxtında verməmisən. Həmişə sənin üçün tələsmişəm, işləmişəm, işləmişəm. Bütün çəkdiyim zəhməti özümə yox, başqasına yedirtmisən, ya da başqası üçün yığıb keşiyini çəkmisən. Axırda yorulub oturdum. İndi barı məndən gileylənib,

dincliyimi pozma. Elədiklərim yadıma düşəndə kinim artır. Get, günahkarı axtar.

Axtardım günahkarı. Siz də axtarın. Tapanda canın qabağında diz çök, onun...

* * *

Əmim radioya qulaq asmır, televiziyaya baxmır, qəzet-kitab oxumurdu. Oxumuş insanların sözünə-sovuna fikir vermir. Mən təmiz yaşamaq istəyirəm, - deyir, - lap babalarım kimi. Kişinin içində köhnə kişilik, çölündə də bir sifət var.

Deyirik: - Əmi, geri qalırsan.

Deyir: - Elə isə Ərəstunu, Nizamini niyə oxuyursan?

Biz güldük. Kişi fikrə gedir.

Görəsən...

* * *

Dünyanın ən böyük güzgüsü ədəbiyyatdır.

* * *

# BAŞLIQLAR

**Ön söz əvəzi**

Dünyada qalan.......................................5

**Müəllifdən**

Bir mücrü açıram ...................................8

**Dünyada qalsın...** ..................................11

Yığılmağa verilmişdir: 20.09.2011
Çapa imzalanmışdır: 01.10.2011
Kağız formatı: 70x100 1/32
Fiziki çap vərəqi: 6
Mətbəə kağızı: № 01
Sifariş: № 658 Sayı: 500 nüsxə

***Ofset üsulu ilə çap olunmuşdur***

*Kitab "YAZIÇI" nəşriyyatında yığılıb, səhifələnmişdir,*
*Ünvan: Bakı, Mətbuat pr. 24,*
*Telefon:(99412) 510-68-48, (99412) 510-79-94*
***E-mail: desinger2010@mail.ru***